## TƏSVİRİ SƏNƏT

**UOT 745/749**

***Sevinc İslamova***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət***
***Universitetinin doktorantı***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail:* sevka-75@mail.ru**

# XALQ RƏSSAMI NAZİM BƏYKİŞİYEVİN TEATR TAMAŞALARINA VERDİYİ BƏDİİ TƏRTİBAT İŞLƏRİ

**Xülasə**: Məqalədə Azərbaycanın xalq rəssamı Nazim Bəykişiyevin müxtəlif zamanlarda teatr tamaşalrına verdiyi bədii tərtibatları haqqında məlumat öz əksini tapmışdır. Nazim Bəykişiyev əsasən teatr rəssamı kimi tanınır. 2001-ci ildən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının baş rəssamıdır. Milli teatrın səhnəsində uğurla tamaşaya qoyulan H.Cavidin «İblis» və «Afət», M.F.Axundovun «Lənkəran xanının vəziri», V.Səmədoğlunun «Yayda qartopu oyunu», U.Şekspirin «Hamlet», Elçinin «Qatil», J.Koktonun «İnsan səsi», Mir Cəlalın «Dirilən adam» kimi səhnə əsərlərinin bədii tərtibatı məhz Nazim Bəykişiyevə məxsusdur.

**Açar sözlər:** Teatr, rəngkarlıq, tərtibat, bədii, dram, kolorit, fəlsəfi.

Teatrda duyulan hər bir inkişaf, dinamika, sözsüz ki, ilk növbədə tamaşanın ərsəyə gəlməsindən sonra duyulur. Demək ki, həm də rejissor yozumunda, aktyor ifasında və tamaşanın bədii tərtibatında bu inkişafı, dinamikanı duymaq mümkündür. Ancaq tamaşaçı teatra gələndə pərdələr açılır, o, birinci olaraq rəssamın işini görür və bu ilk görüşdən aldığı təəssürat tamaşanın sonuna qədər ona hakim kəsilir. Demək ki, teatr rəssamının üzərinə böyük məsuliyyət düşür.

Səhnəqrafiya teatr sənətinin ən mühüm komponentlərindən biridir. Dünya teatr məkanında XX əsrdə cərəyan edən proseslər teatr rəssamlığının teatr sənətinin ifadə vasitələri arasında özəl yerə malik olduğunu birmənalı şəkildə təsdiqlədi.

Çağdaş milli səhnəqrafiya sənətindən danışarkən Nazim Bəykişiyevin adını xüsusi vurğulamaq lazımdır.

Azərbaycanın xalq rəssamı Nazim Bəykişiyevin teatr yaradıcılığı müasir milli incəsənətin parlaq təzahürlərindən biridir. Geniş yaradıcılıq diapazonuna malik bir rəssam kimi N.Bəykişiyev Azərbaycan səhnəqrafiya sənətinin inkişafına böyük töhfələr vermişdir. Onun teatr-dekor sənəti sahəsindəki yaradıcılığı rəssamın dramaturji əsərin dərin qatlarına həssaslıqla nüfuz etməsi və ədəbi materialın çox dəqiqliklə yozulması faktları ilə əlamətdardır. V.Şekspirin, Jan Koktonun əsərləri ilə yanaşı, N.Bəykişiyev həmçinin Azərbaycan klassiklərinin – M.F.Axundov, H.Cavid, Mir Cəlal, Elçin – əsərləri əsasında hazırlanan tamaşalara da yüksək səviyyəli tərtibat vermişdir.

Nazim Bəykişiyev fitri istedada malik və sənət aləmində müxtəlif istiqamətlərə maraq göstərən sənətkarlarımızdan biridir. Nazim Bəykişiyev əsasən teatr rəssamı kimi tanınır. 2001-ci ildən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının baş rəssamıdır. Milli teatrın səhnəsində uğurla tamaşaya qoyulan

H.Cavidin «İblis» və «Afət», M.F.Axundovun «Lənkəran xanının vəziri», V.Səmədoğlunun «Yayda qartopu oyunu», U.Şekspirin «Hamlet», Elçinin «Qatil», J.Koktonun «İnsan səsi», Mir Cəlalın «Dirilən adam» kimi səhnə əsərlərinin bədii tərtibatı məhz Nazim Bəykişiyevə məxsusdur. [2. s. 36]

Bu əsərlər həm mövzu-problematikasına, həm də yazılma dövrlərinə görə müxtəlifdir. Üstəlik rəssamın işlədiyi rejissorlar da üslub xüsusiyyətlərinə görə müxtəlifdirlər. Deməli, rəssamın hazırlanan tamaşaya forma tapması əsl yaradıcılıq axtarışları, yüksək təxəyyül və kamil estetik zövq tələb edir. Bu keyfiyyətləri mənimsəmiş Nazim Bəykişiyevin quruluş verdiyi tamaşa tərtibatları forma bitkinliyi, kolorit əlvanlığı ilə seçilirlər.

Nazim ilk növbədə tamaşanın ideya-bədii dəyərini, rejissorun ali məqsədini tamaşanın bədii tərtibatında təcəssüm etdirməyə çalışır. Onun tərtibatları tamaşanın obrazı kimi səciyyələnir.

Şux və parlaq rəngləri daha çox musiqili komediyalardan «Qızıl toy», «Məzəli əhvalat», «Nəğməli könül», «Məşədi İbad», komediyalardan «Lənkəran xanının vəziri», «Əliqulu evlənir», «Arşın mal alan» (Avstriya, Vyana), «Məşədi İbad» (Türkiyə, Ankara), «Varlı qadın», «Yeddi məhbusə», «Dadaşbala əməliyyatı» əsərlərinə verdiyi tərtibat aiddir.

Rəssam sərt və soyuq rənglərdən klassik üslubda və obrazlı şəkildə daha çox dramatik-psixoloji, lirik yüklü tamaşalarda istifadə edir. Misal olaraq, «Neron oynayır və ya iblisin komediyaları» (Miklos Xubai), «Ördək ovu» (A.Vampilov), «Günah» (R.Əlizadə), «Yayda qartopu oyunu» (V.Səmədoğlu), «Qızıl dağın kralı» (Dəmir Ehram), «Dəli Domrul» (Kamal Aktay), «Atamın kitabı» (B.Vahabzadə) tamaşalarının adlarını çəkə bilərəm.

Rəmzi detallardan və qarışıq rənglərdən istifadə olunmuş tamaşalar daha çox monumentallığı və romantik vüsəti ilə diqqətçəkəndir. Bu bölümə «Hamlet» (U.Şekspir), «Afət», «İblis» (H.Cavid), «Ölülər» (C.Məmmədquluzadə), «Karmen» (P.Merime), «Qatil» (Elçin), «Dirilən adam» (Mir Cəlal), «Kaş araba aşmayaydı!..» (O.İoseliani) tamaşalarını aid etmək olar.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, əməkdar incəsənət xadimi Ziyadxan Əliyev qeyd edir ki, "2001-ci ildən Akademik Milli Dram Teatrında baş rəssam vəzifəsində çalışan N.Bəykişiyevə bu müraciətlər ilk növbədə onun dramaturji materiala və rejissor düşüncələrinə məsuliyyətli və yaradıcı yanaşmağının nəticəsidir ki, müxtəlif teatrlar ən taleyüklü məqamlarda məhz ona müraciıt edirlər. Müxtəlif teatrlarda ayrı-ayrı rejissorlarla çalışan və müxtəlif janrlı əsərlərə bədii tərtibat verən Nazim Bəykişiyev bu prossesdə öz işini başlıca olaraq, dramaturji materialın tamaşaçını cəlb edə biləcək və onun hiss- duyğularını səhnədə baş verənlərin inandırıcı olmasına kökləyə biləcək psixoloji durumun yaradılmasındaiştirakda görür". [1. S. 16]

Nazim Bəykişiyevin tərtibatında detallar nə qədər çox olsa da, orta məkan, başqa sözlə, aktyorların ifası üçün meydan həmişə genişdir.

Rəssamın monumental ruhlu tərtibatındakı əzəmət tamaşanın ideyası və rejissorun ali məqsədi ilə harmonik vəhdətdə uzlaşır. Bu monumentallıq fəlsəfi dəyərlərlə cilalanır, obrazlı təcəssüm tapır.

Nazimin tərtibatlarında dekorlar vüsətli və ifadəli, mənalı və koloritlidir, səhnədən tam və cazibəli görünür.

Forma və məzmun xronotopunun estetik bədii həllində rəssam hər dəfə orijinal üslubdan bəhrələnir.

Nazim Bəykişiyev quruluş verdiyi teatrda səhnənin texniki ölçülərini dərindən mənimsəyir. Buna görə də onun tamaşalarında kompozisiya bitkindir. Fəza genişliyində poetik vüsət var.

Bir sıra tamaşalarda Nazim Bəykişiyevin tərtibatı ikimərtəbəli olur. Bu iki mərtəbə də çox maraqlı və obrazlı detallarla əlaqələndirilir. Məkanından asılı olmayaraq, onun tərtibatlarında aktyorların sərbəst və məzmunlu davranışları, hadisələrə sərbəst daxil ola bilmələri üçün bitkin şərait var.

Bir rəssam kimi Nazim Bəykişiyevin rənglərinin mayasında ülviyyət, həzinlik və titrəklik var. Həmin cəhətlər rəssamın fəlsəfi-emosional duyğularını dərindən-dərinə dərk eləmək üçün açardır, əsərlərinin mahiyyətini incədən-incəyə duymaqdan ötrü bələdçidir. Həmin rənglərin ifadə gücünü, fikir dərinliyini, fəlsəfi qənaətlərini dərk etdikcə, ilk növbədə tamaşanın bütöv obrazı aydın dərk olunur. Həm də rəssamın idrakının, rəssamın təfəkkürünün qaynarlığı və sakitliyi, çılğınlığı və həlimliyi, poetikliyi və zərifliyi sənətkarın özünün şəxsiyyət obrazını canlandırır.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında rejissor Mehriban Ələkbərzadənin quruluşu ilə hazırlanmış Elçinin «Qatil» tamaşasını misal gətirmək, zənnimizcə, məqsədəuyğun olardı. Çünki bu tamaşanın quruluşçu rəssamı da Nazim Bəykişiyevdir. Biz diqqəti rəssam Nazim Bəykişiyevin səhnə tərtibatının hazırlanması zamanı istinad etdiyi bir sıra nüanslara yönəltmək istərdik.

Rəssam «Qatil» tamaşasında dəyişkən emosional ovqatlı, mürəkkəb nüanslardan ibarət, son dərəcə gərgin və həyəcanlı atmosfer yaratmağa çalışmışdır.

Bu tamaşadakı səhnə tərtibatı bir tərəfdən yüksək tərtibat nümunəsi, digər tərəfdən isə dolğun aktyor oyununa imkan açan təsirli və fəal oyun, meydan səhnəqrafiyasıdır.

Quruluşçu rəssam Nazim Bəykişiyevin təqdim etdiyi məkanın fakturası bambaşqa yozum və estetik şərtləri təklif edir. B.Brextin epik teatr estetikasına söykənən Nazim Bəykişiyevin sərt və funksional baxımdan geniş imkanlar verən səhnə qurğusu təbiəti etibarilə epik janr olan romanın «səhnə oxunuşu» üçün səmərəli və təsirli şərait yaradırdı. Tamaşa başlamamışdan hadisələrin ovqatını, dövrün atmosferini, ab-havasını müəyyənləşdirən səhnəqrafiya funksionallığı ilə yanaşı, tamaşanın vizual obrazını yaratmağa müyəssər olur. Sözügedən obraz dövrün zahiri sərbəstliyini, möhkəmliyini və daxili sabitsizliyini ifadə edərək romanın başlıca ideyası ilə üzvi bağlılıqda tamaşanın çağdaş səslənməsini öncədən müəyyənləşdirirdi.

Sənətşünaslıq üzrə elmlər doktoru, əməkdar incəsənət xadimi Məryəm Əlizadə qeyd edir ki. "Dövlət mükafatı laureatı Nazim Bəykişiyevin tərtibat verdiyi tamaşalar öz zamanının məhsulu olaraq bu zamanın möhürünü daşımaqdadır. Bu tamaşalar səhnəqrafiya sənətinin inkişafının müəyyən tendensiyalarını özündə təcəssüm etdirməklə yanaşı, eyni zamanda, fərdiliyi, bənzərsizliyi ilə diqqəti cəlb edir". [3. S. 24]

2006-cı ilin sentyabrında Vyananın məşhur Kammeroper Teatrında hazırlanan dahi bəstəkar Üzeyir Hacıbəyovun «Arşın mal alan» operettasının quruluşu da rəssamın maraqlı işləri sırasına daxildir.

Nazim Bəykişiyevin səhnə tərtibatı sahəsindəki fəaliyyəti Azərbaycan teatr-dekorasiya sənətinə verilən böyük töhfələrdir.

SSRİ xalq artisti, professor Mehdi Məmmədovun «İblis» tamaşasına verdiyi tərtibata görə rəssam 1984-cü ildə Respublika Dövlət mükafatına layiq görülmüşdür.

Onun fərdi üslubu, milli koloriti və yeni dünyagörüşü ilə fərqlənən rəngkarlıq əsərləri dünyanın bir çox ölkələrində, nüfuzlu sərgilərdə nümayiş etdirilmişdir.

Nazim Bəykişiyev bir teatr rəssamı kimi hər tamaşada ardıcıl və demonstrativ şəkildə səhnə qutusunu tam açmağı qarşısına məqsəd qoyur. Səhnənin real məkanında pyesin dövrünə, janrına, atmosferinə uyğun olan səciyyəvi, real əşyalardan ibarət tamaşanı yaratmağa çalışır və ən sadə əşyalarla işləyərkən belə, onları aktyor və personaja xidmətə yönəldərək obrazlı effektə yetməyə daim cəhd göstərir.

Rəssamın yaradıcılığının çox vacib hissəsi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasındakı pedaqoji fəaliyyətidir. Burada o, yeni rəssamlar nəslinin yetişdirilməsi üçün böyük və səmərəli iş aparır.

Nazim Bəykişiyev ustad sənətkar kimi mövcuddur, yaradıcılığın ən yüksək şərt və tələblərinə cavab verən böyük rəssamdır.

Nazim Bəykişiyev, yaradıcılığında şəxsi keyfiyyətlərin parlaq təzahür tapdığı sənətkarlardandır. Yetkinlik, daxili nizam, saf ruh, şəxsiyyətin iç dünyası və ətraf mühitlə harmoniyası – N.Bəykişiyevin bütün bu insani keyfiyyətləri yaradıcılığında öz əksini tapır.

Bir-neçə fərdi sərgisi keçirilib.N.Bəykişiyevin teatr sahəsində "Qızıl Dərviş" (2004) və Beynəlxalq "Humay" (2006) mükafatlarına, rəngkarlıq üzrə İran İslam Respublikasında keçirilən Beynəlxalq blennalenin qalibi adına layiq görülməsi də bunu təsdiqləyir. Təsviri sənətin bu iki sahəsində səmərəli fəaliyyətinə görə "Azərbaycan Respublikasının əməkdar rəssamı" (2002) və "Azərbaycan Respublikasının xalq rəssamı" (2006) fəxri adlarını alması da onun fəaliyyətinin rəsmi səviyyədə təqdirinin göstəricisidir.

**Ədəbiyyat:**


1. Əliyev Z. Zərif boyaların lirik-fəlsəfi tutumu // Kaspi qəzeti 2015, 03 dekabr S. 16
2. Ələsgərov Çingiz. Nazim Bəykişiyevin yaradıcılığı haqqında düşüncələr. Qobustan №2. 2004. S. 36–38.
3. Əlizadə M. O teatrda, teatrı sevir. Qobustan sənət toplusu. № 1, 2008.



**Севиндж Исламова**


**Художественное оформление театральных представлений народного художника Азербайджана Назим Беккишиева**

**Резюме**


В данной статье автор повествует о творческой деятельности народного художника Азербайджана Назима Беккишиева, который активно принимал участие в художественных оформлениях театральных представлений. Назим Беккиев получил известность в основном, как художник театра. С 2001 года он является главным художником в Национальном Академичском

Драматическом Театре. Благодаря его художественных задумок и идей на сцене вышеупомянутоготеатра удачно прошли премьеры таких спектаклей, как: «Дьявол» и «Афет» Г. Джавида, «Визирь ленкоранского ханства» М.Ф. Ахундзаде, «Игра в снежки летом» В. Самедоглу, «Гамлет» У. Шекспира, «Убийца» Эльчина, «Человеческий голос» Ж. Кокто, «Воскресший» Мир Джалала и др.

**Ключевые слова:** театр, художество, оформление, художественный, драма, колорит,философия.

**Sevinj Islamova**

**The artistic design of the theatrical performances of the People's Artist of Azerbaijan Nazim BekkishiyevSummary**

In this article the author narrates about the creative activity of the People's Artist of Azerbaijan Nazim Bekkishiyev, who actively participated in the decorations of theatrical performances. Nazim Bekkishiyev gained fame mainly as an artist of the theater. Since 2001, he has been the main artist at the National Academic Drama Theater. Thanks to his artistic ideas and ideas, the premiere of such performances as "Devil" and "Afet" by G. Javid, "Vizier of the Lenkoran Khanate" M.F Akhundzade, "Playing Snowballs in the Summer" by V. Samadoglu, "Hamlet" by W. Shakespeare, "The Slayer" by Elchin, "The Human Voice" by J. Cocteau, Risen World of Jalal and others.

**Keywords:** theater, art, design, art, drama, color, philosophy.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 25.10.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.11.2017Məqalənin çapa qəbul olunma tarixi: 11.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: professor Arif ƏzizADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**